*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

https://doi.org/10.62837/2024.11.446

**LƏMAN MUXTAROVA**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
lemanazfen@gmail.com

# AZƏRBAYCAN PARLAMENTİNİN ŞAİR VƏ YAZIÇI ÜZVLƏRİNİN İCTİMAİ-SİYASİ ƏSƏRLƏRİ - CÜMHURİYYƏT VƏ MÜSTƏQİLLİK DÖVRÜNDƏ Xülasə

Məqalədə müxtəlif dövrlərdə Azərbaycan Parlamentinin üzvü olmuş şair və yazıçıların ictimai-siyasi fəaliyyətindən və əsərlərindən bəhs olunur. Parlamentin şair və yazıçılarının azadlıq, milli məfkurə, ictimai birlik, istiqlal mübarizəsini əks etdirən, milli-mənəvi dəyərlərimizi qorumağa səsləyən əsərləri haqqında məlumat verilir. Burada Cümhuriyyət Parlamentinin yazıçı üzvü S.M.Qənizadənin maarifçiliyi təbliğ edən əsərlərinin əhəmiyyəti vurğulanır. Şair millət vəkili M.S.Aranın sönməyən istiqlal mübarizəsini əks etdirən əsərləri və onun bütün həyat yolunu bu mübarizəyə həsr etməsi diqqətə çatdırılır.

Bundan başqa müstəqillik dövrü yazıçı və şair millət vəkilləri B.Vahabzadənin və Z.Yaqubun yaradıcılığında millilik və istiqlal mövzularına toxunulur. Müstəqillik dövründə də ziyalıların, şair və yazıçıların ictimai-siyasi fəaliyyətinin vacibliyi diqqətə çatdırılır, onların yaradıcılığına nəzər salınır, əsərlərinin xalqın müstəqillik mübarizəsinə təsirindən danışılır.

**Açar sözlər:** ədib, şair, xalq, parlament, ictimai-siyasi məzmun

**Giriş.** Cəmiyyətin bütün dövrlərində ədəbiyyat tarixlə yanaşı addımlamış, ədəbi əsərlər xalqın və onun yaşadığı tarixin əks-sədası olmuşdur. Ədəbiyyat xadimləri bədii əsərləri ilə cəmiyyət həyatına bilavasitə təsir etməklə yanaşı, ictimai-siyasi fəaliyyətləri ilə də hər zaman xalqa yaxınlaşmağa çalışmışlar. Hələ qədim zamanlardan qüdrətli dövlət başçıları ədəbiyyat xadimlərini, şairləri və söz ustalarını özlərinə müşavir seçir, onların müdrikliklərindən faydalanaraq dövləti idarə edirdilər. Azərbaycan xalqının da dövlətçilik tarixində ədəbiyyatın və ədiblərin rolu danılmazdır. Ədəbiyyatın xalqın mənəvi zənginləşməsində böyük rol oynaması, mənəvi kamilliyə atılan yolda körpü olması tarixin bütün dövrlərində özünü göstərmişdir. Azərbaycanın xanlıqlar dövrünə nəzər salsaq görərik ki, dövlət idarəçiliyində şairlər, ədiblər yüksək mövqeyə malik olmuşdur: *"Əyanlar arasında birinci şəxs olan vəzir xanın ən sədaqətli, inanılmış, savadlı və dünya görüşə malik adamlarından təyin olunurdu. Məsələn, Qarabağ xanı İbrahim xanın vəziri Molla Pənah Vaqif belələrindən idi. O, təkcə böyük şair deyil, eyni zamanda xarici siyasət məsələlərini yaxşı bilən diplomat və dövlət adamı idi"* [4, s.34] Tək bu dövrlərdə deyil, digər vaxtlarda da ədiblər dövlət idarəçiliyində müəyyən mövqeyə malik olmuş, bu ənənə tarix boyu davam etmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

**Məclisi-Məbusanın yazıçı və şair üzvləri.** Azərbaycan Cümhuriyyəti yarandığı dövrdə yazıçılar və şairlər Parlamentin tərkibinə seçilmiş, həm dövlət idarəçiliyi, həm də qanunvericilik fəaliyyətinin ayrılmaz simalarına çevrilmişlər. Azərbaycan Parlamentinin yaranma tarixi xalqın milli ideologiyasının, mili azadlıq ruhunun, milli təfəkkürünün formalaşdığı, qaynar ədəbi mühiti ilə olduqca zəngin bir dövrə təsadüf edir. Ona görə də Parlamentdəki ədiblərin siyasi və ictimai fəaliyyəti ədəbi-bədii baxımdan olduqca əhəmiyyətlidir. Cümhuriyyət dövrü Parlamenti müasir Azərbaycan Parlamentinin təməli sayılmaqla yanaşı, həm də ictimai-fikir tarixində milli şüurun oyanışını əks etdirən ədəbi nümunələrin yaranmasına təkan vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Parlamentin yaranması insanlarda böyük mənəvi oyanışa, ruhi yüksəlişə səbəb olmuş, bu milli dirçəliş özü də ədəbi-bədii zənginliyə bilavasitə zəmin yaratmışdır. Cümhuriyyət dövründə Parlamentin tərkibinə seçilən millət vəkilləri 11 fraksiyada olmaqla 104 nəfər idi. Onların içərisində pedaqoq, müəllim, publisistlər və eləcə də yazıçı və şairlər var idi. Yazıçı Sultan Məcid Qənizadə Milli Parlamentdə Sədrin müavini kürsüsünə seçilmişdi. Sultan Məcid Qənizadə həm maarifçi-pedaqoq, həm yazıçı millət vəkili idi. Azərbaycan müəllimlərinin bir neçə nəsli S.M.Qənizadəyə "Mirzə Məcid" deyə müraciət edərək hər zaman onu hörmət və ehtiram göstərmiş, onun məsləhətlərindən daim yararlanmışdılar. [5, s.7] Ədib istər müəllimlik fəaliyyətində, istər yazıçı olaraq, istərsə də bir məclis üzvü olaraq xalqın işıqlı gələcəyinin onun maariflənməsindən keçdiyini bilir və bu yolda əlindən gələni əsirgəmirdi. Ömrünü yalnız xalqının maariflənməsinə həsr edən S.M.Qənizadə həm dərsliklər tərtib etmiş, həm maarifçiliyi təbliğ edən əsərlər yazmışdır, bununla yanaşı Azərbaycan Cümhuriyyəti Parlamentində xalqı təmsil etmişdir. S.Ə.Şirvaninin Üsuli-Cədid məktəbini bitirdikdən sonra Tiflisdəki Aleksandrovski müəllimlər institutuna daxil olmuş və burdakı təhsili S.M.Qənizadənin bir maarifçi kimi yetişməsində böyük rol oynamışdır. 1887-ci ildə S.M.Qənizadə Bakıda "Rus-Azərbaycan məktəbi" adlı yeni tipli ibtidai məktəbin əsasını qoymaqla Azərbaycan maarifçiliyi tarixində yeni dövrün əsasını qoydu. Bu məktəbdə ana dili əsaslı şəkildə öyrədilir, rus və fars dillərindən başqa dünyəvi elmlər də tədris olunurdu. Sonralar bu məktəbin təcrübələri çox gözəl nəticələr verdiyi üçün bu yeni tipli məktəblər Azərbaycanın bir çox rayonlarında açılmış, Orta Asiya və Dağıstanda da tətbiq edilmişdir. [5, s.5] Ədib yaradıcılığa müəllimlik etdiyi vaxtlardan başlamışdır. O xalq nağılları əsasında uşaqlar üçün "Tülkü və Çaqçaq bəy" mənzum hekayəsi, "Məktubati-Şeyda bəy Şirvani" başlığı altında "Müəllimlərin iftixarı" və "Gəlinlərin həmayili" əsərlərini yazmış, eyni zamanda teatrımızın inkişafına da xidmətləri olmuşdur. O, N.Nərimanov və H.Mahmudbəyovla bərabər Azərbaycan Teatr truppasının fəaliyyətinə istiqamət vermiş, ora həvəskarları cəlb etmişdir. Teatrımızın böyük ustadı Hüseyn Ərəblinski səhnəyə S.M.Qənizadənin təşviqi ilə gəlmişdir. Ərəblinski 1898-ci ildə Qənizadənin rejissorluğu ilə tamaşaya qoyulan "Sərgüzəşti-Vəziri-Xani-

Lənkəran" komediyasında ilk dəfə səhnəyə çıxaraq Mehtər Kərim rolunu oynamışdır. [5, s.6] S.M.Qənizadə elmi-pedaqoji fəaliyyəti çərçivəsində bir sıra əsərlər, lüğətlər, dərsliklər yazaraq ömrünün yarıdan çoxunu Azərbaycan maarifçiliyinə həsr etmişdir. O, müəllimliklə bərabər bir sıra əsərlər yazmış, hər zaman ədəbiyyatın tərbiyəvi əhəmiyyətini öz əsərlərində, məktublarında qeyd etmiş, bədii əsərlərin gənc nəslin əxlaqına təsirindən və ictimai əhəmiyyətindən bəhs etmişdir. Onun "Lüğəti-rusi və müsəlmani", "İstilahi-Azərbaycan" və müəllim Əliskəndər Cəfərzadə ilə bərabər fars dilində yazdığı "Kəlili-ədəbiyyat" elmi-pedaqoji əsərləri və dərslikləri ilə bərabər bədii əsərləri də jurnallarda çap olunurdu. 1905-ci ildə Qori seminariyasının Azərbaycan şöbəsinin müfəttişi işləyərkən "Allah xofu", "Qurban bayramı" kimi əsərlər yazmış, "Axşam səbri xeyir olur", "Xor-xor", "Dursunəli və ballıbadı" təbdilləri jurnallarda çap olunmuş, "Lüğəti-rusi və türki" əsərlərini yazmışdır. S.M.Qənizadə yaradıcılığa hər zaman böyük dəyər verərək yazıçılıq haqqında deyirdi: *"əgər yazıçı həyatı öyrənmədən əsər yazsa, ancaq "kağızın qəlbini yarıb, mürəkkəbin qanını tökər" , belə əsərdən heç kəs fayda görməz".*[5, s.8]

S.M.Qənizadənin maarifçiliyi təbliğ edən, ictimai-əxlaqi görüşlərini ifadə edən iri həcmli əsəri "Məktubati-Şeyda bəy Şirvani" romanıdır ki, bu əsərdə o millətin gələcəyini düşünən, nicat yolunu yalnız elmdə, təhsildə görən fədakar müəllim obrazı yaratmışdır. Əsərdə müəllimlik sənətinin iftixarlı, eyni zamanda çətin olduğunu görürük. Bu sənətin həm şərəfli olmasından bəhs olunur, həm də müəllimlərin çətin vəziyyətdə olmaları göstərilir. İki hissədən ibarət olan bu əsərdə müəllimin iftixarının onun dəftər, qələmi və şagirdləri olduğunu deyir: *"Müəllimin ağ və qızılı bəyaz üstündə qələm qarasıdır".* [Qenizade səh 26] Qənizadənin əsərlərində təlim-tərbiyənin əhəmiyyəti vurğulanır, millətin nicat yolunun məktəbdən başlandığı göstərilir. Onun fikirləri çox mütərəqqi idi. O, "Məktubati-Şeyda bəy Şirvani" romanında müəllimlik sənətini uca hesab edir, hər bir sənətin məktəb divarlarında öyrənildiyini deyirdi. Millətin işıqlı gələcəyə çıxması üçün, mərifət qapısına çatması üçün məktəbə və müəllimə ehtiyacı vardır deyirdi: *"Bizlər üçün bir çıraq yanacaqsa məktəb ocağının şöləsində yanacaqdır. Cəhalət mülkünə əgər bir məhtab (ay işığı) doğacaq isə, yenə məktəb divarında tülu (zühur etmək, doğmaq) edəcəkdir".* [5, s.32]

Ədib yaradıcılıqla bərabər Cümhuriyyət Parlamentində kəsərli çıxışlar etmiş, bir çox ədəbi məsələlərə münasibət bildirmiş və təhsillə bağlı məsələlərin müzakirəsinə sədrlik etməklə yanaşı bilavasitə münasibət bildirmiş, təkliflər irəli sürmüşdür. O, çox əhəmiyyətli olan "Darülfünun məsələsi"nin baxıldığı 21 avqust iclasına sədrlik etmiş, 29 sentyabr iclasında çıxış edərək Darülfünuna qəbul olunanların xüsusi hazırlıqlı tələbələr olmasının vacibliyini vurğulamışdır, "Darülfünün təsisi haqqında Qanun"u imzalamışdır. Ədib Parlamentdəki çıxışlarında da maarifçiliyi təbliğ etmiş, hər zaman bunun üçün mübarizə aparmışdır. [1, s. 463]

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

Cümhuriyyət dövrü Parlamentinə nəzər saldıqda oradakı çıxışların poetikliyi diqqəti cəlb edir. Ümumiyyətlə dövrün ədəbi əsərləri, mətbuatda dərc olunan məqalələr, çıxışlar ictimai-siyasi xarakterli olmaqla yanaşı həm də özünün bədii dəyəri ilə bu gün də çox söz deyir. Lakin, Parlament kürsüsündə deyilən sözlər ədiblərin dili ilə deyilərkən daha kəsərli, daha yaddaşlarda qalan olur. Parlamentdə stenoqramları oxuyarkən gözə çarpan maraqlı məqamlardan biri də istər şair olsun istər olmasın məclis üzvlərinin şeir vasitəsilə özlərini ifadə edərək çıxış etməsi idi. Bununla sanki, onlar düşüncələrə daha çox nüfuz edir, çıxışların təsir qüvvəsini artırırdılar. Cümhuriyyət Parlamentinin şair üzvləri sırasında Məmməd Sadıq Aran, Hacı Kərim Sanılı, publisist, ədiblər sırasında Nəsib bəy Yusifbəyli, Şəfi bəy Rüstəmbəyli, Məmməd Əli Rəsulzadə, Səməd ağa Ağamalıoğlu, şərqşünas alim Muxtar əfəndi Əfəndizadənin adlarını çəkmək olar.

Cümhuriyyət Parlamentinin şair üzvlərindən Məmməd Sadıq Aran Zəngəzur qəzasının Sisyan bölgəsində anadan olmuşdur. Uşaqlıqda ərəb və fars dillərini öyrənən M.S.Aran Bakı Yüksək Pedaqoji İnstitutunu bitirir, daha sonra İstanbul Universitetinin Ədəbiyyat fakültəsində iki il, Helsinki Universitetində bir il təhsil alır. M.S.Aran 1917-ci ildən etibarən Azərbaycanın milli istiqlal uğrunda mübarizəsinə qoşulmuş, 1918-ci ildə Cümhuriyyət Parlamentinin üzvü olmuş, 1920-ci ildə bolşevik istilasından sonra Bakıda silahdaşları ilə gizli təşkilat qurmuşdur. M.S.Aran çeka dəstələri tərəfindən Tiflisdə həbs olunur. İşgəncələrə məruz qalsa da heç kəsi ələ verməyən Aran bu şeiri deyir:

Sönməz ruhumdakı coşğun vulkanlar!
Saçar fırtınalar, ataşlər, qanlar!
Qanımda boğular azğın düşmənlər.
İstiqlal uğruna qanlı bir kəfən
Geymişəm ölsəm də, yaşasın Vətən! [7,s.11]

Aran müstəqilliyimizin, istiqlalımızın istər parlamentdə istərsə də mühacirət dövründə olarkən keşiyində durmuş, məruz qaldığı təqiblərə baxmayaraq heç zaman milli mübarizəsindən dönməmişdir. Müstəqil Azərbaycan ideyası bu istiqlal carçılarının ürəyində də, qələmində də daim yaşamışdır. Bu mübarizə müstəqillik dövründə də milli məfkurəyə, ədəbi istiqlal əqidəsinə sadiq qalan şair millət vəkillərinin ictimai-siyasi məzmunlu əsərləri ilə davam etdirilir.

**Müstəqillik dövründə yazıçı və şair millət vəkilləri.** 1991-ci ildə müstəqilliyimizin bərpası ilə Azərbaycan Parlamentinin tarixində yeni dövrün təməli qoyuldu. Bu parlament artıq müstəqil dövlətin azad xalqına xidmət edən bir parlament idi. Parlamentin tərkibinə qeyd etdiyimiz kimi, yazıçı və şairlər də seçilirdi. Ədiblərin xalqın mənəvi dəyərlərinin, milli şüurunun formalaşmasına təsirindən başqa, dövlət və qanunvericilik fəaliyyətindəki müstəsna xidmətləri Azərbaycan müstəqillik qazandıqdan sonra daha da gücləndi. Xalqın milli ruhunun, milli dirçəlişinin, milli özünüdərkinin formalaşmasında Məclisi-Məbusanın

yaranması mühüm rol oynadığı kimi, müstəqil Azərbaycan Parlamentinin inkişafında da ədib, ziyalı fəaliyyəti əhəmiyyətli dərəcədə mühüm rol oynamağa başladı. Müstəqillik qazandıqdan sonra Milli Parlamentimizin tərkibində də Cümhuriyyət dövründə olduğu kimi yazıçı millət vəkilləri təmsil olunurdu.

Müstəqillik dövrü Parlamentinin tərkibinə seçilən yazıçı və şairlərdən Bəxtiyar Vahabzadənin ictimai-siyasi fəaliyyəti çox əhəmiyyətli dərəcədə nəzərə çarpandır. Şair ana dilimizin su kimi saflığının ahəngində istiqlala, azadlığa səsləyən şüarları ilə bu dövrün milli dirçəlişinə, böyük oyanışına təkan vermişdir. Onun qəlbində Azərbaycançılıq məfkurəsi kök salmış, vətənə, millətə, milli-mənəvi dəyərlərə dərin sevgi həkk olmuşdu. B.Vahabzadənin vətən sevgisi ölçülməz idi. "Vətən var", "Vətəndaş" şeirlərində şair insanın qüdrətini, ucalığını Vətənində var olmaqda görür. Onun üçün vətəndaş olmaq sadəcə sözdən ibarət deyil. Vətəndaş bir qaynaqdan su içən və bu qaynağın suyu ilə coşub daşan insandır. Vətən bizi qoynunda bəsləyirsə, vətəndaşın vəzifəsi bu cahanda birlik olub Vətən üçün bir amala, bir məqsədə xidmət etməkdir-deyirdi. Onun "Azərbaycan oğluyam" əsərində köklərinə bağlı Vətən övladı görürük. Bu əsərdə kimsənin torpağında gözü olmayan, lakin bir çərək torpağını kimsələrə verməyən bir vətən fədaisinin bədii obrazı öz əksini tapmışdır. Akademik N.Cəfərov B.Vahabzadənin yaradıcılıq məktəbini "Azərbaycanın son yarım əsrdəki təfəkkür tarixini özündə ehtiva edən ən etibarlı mənbələrdən" hesab edir. [2, s.4]

B.Vahabzadə millətin ictimai-siyasi vəziyyətini bədii əsərlərində ustalıqla ifadə edən istiqlal ruhlu şair idi. O, şair olmaqdan da çox özünü millətin həqiqi vəkili hesab edirdi:

*...Mən kiməm? Qərəzim nə?*
*Qarşı durdum zillətə,*
*Bilmirəm bu millətə*
*Vəkil etdi kim məni?...* [8, s.63]

Bu sadə, hərfi mənada vəkillik deyildi. Şair xalqın bütün narahatlıqlarının, dərdinin öz dərdi olduğunu deyir, millətin çəkdiyi zillətin, əzab əziyyətin onu vəkil etdiyini yazırdı:

*...Vəkil etdi millətin*
*Çəkdiyi sitəm məni.* [ 8, s.63]

B.Vahabzadənin öz millətinin vəkili olmasını 60-cı illərdə ictimai-siyasi əks sədası olan "Gülüstan"ı sübut edirdi. Yaradıcı insanların hər kəlməsinin boğazlarına qarmaq olma ehtimalının yüksək vüsət aldığı zamanlarda bu poemanı yazmaq, bu qılınca sinə gərmək yalnız yüksək istiqlal idealları ilə nəfəs alan şairin cəsarəti idi. Onun Milli Məclisdəki həmkarlarından Maksim Musayev yazıçı və şairlərin Parlamentdəki çıxışlarının təsir gücünün daha yüksək olduğunu, milli şüurun oyanışına təkan verdiyini deyir və ilk dəfə olaraq B.Vahabzadənin Parlamentdəki çıxışlarını araşdırır. [6, s.6] Yazıçı və şairlərin Parlament kürsüsündə çıxışları hər

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

zaman diqqət mərkəzində olmuş, onların çıxışlarının təsir gücü daha böyük olmuşdur. Milli-mənəvi dəyərlərimiz üçün daim mübarizə aparan, milli şüur, azadlıq, milli dil uğrunda mübarizə aparan, çıxışları ilə də digər deputatların deyə bilmədiklərini dilə gətirməkdən çəkinməyən yazıçı, şair, publisist, dramaturq Bəxtiyar Vahabzadənin Parlamentdəki çıxışları onun bütün həyat boyu olan mübarizəsini göstərirdi. Onun həyat mübarizəsi xalqının istiqlalı və istiqbalı idi. Millətin, xalqın taleyi, dövlətimizin müstəqilliyi onu daim düşündürən məsələlər idi. Yalnız mübariz ruhlu şeirləri ilə deyil, həm də millət vəkili kimi odlu-alovlu çıxışları ilə bir çox deputatların ürəyindən xəbər verir, çoxlarının deyə bilmədiyi mürəkkəb məsələləri qaldırır və bunun onun üçün yaradacağı təhlükəni belə düşünmürdü. Çünki, o xalqla, onun dərdi ilə bütünləşmiş biri idi. B.Vahabzadənin ictimai-siyasi əsərləri xalqımızın milli azadlıq təfəkkürünün formalaşmasında, müstəqilliyimizin möhkəmlənməsi yolunda başlıca rol oynamış, bu əsərlər xalqın milli mübarizə silahı olmuşdur. Şair şeirləri ilə xalqa güc vermiş, eyni zamanda bu mübarizədən özü də güc almışdır. B. Vahabzadə şeirlərində çətinliklə, qurbanlarla qazanılmış istiqlal üçün sevinir, həm də müstəqilliyin əbədi olması yolundakı narahatlıqlarını gizlədə bilmir:

*...Azadlıq, sədaqət haqqımdır mənim,*
*Allah çox görməsin bu haqqı bizə.*
*İstiqlal yolunda qurbanlar verib*
*Axır yetişmişik istəyimizə...* [9, s 127]

Vətən qayğısı və bu qayğıdan doğan narahatlıq B.Vahabzadənin şeirinin əsas mayasıdır. Şairin "Əgər qorunmazsa istiqlalımız" , "Təzədən yaratsın yaradan bizi", "Ümidə heykəl qoyun" , "Vətən marşı" adlı ictimai-siyasi məzmunlu əsərləri doğma yurdu və milləti üçün arzularının, qayğılarının, gələcək ümidlərinin simvoludur. Bu əsərlər ideya və ədəbi bədii dəyər baxımından qiymətli nümunələrdir. Vətən sevgisinin ölümü ölümsüzləşdirdiyini, hüriyyətin saf, təmiz niyyətlərdən, yurd sevgisindən doğduğunu göstərən misraların mənəvi dəyərlərin aşılanmasında rolu və əhəmiyyəti danılmazdır:

*...Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik...* [9, s.132]

Parlamentin tərkibinə seçilən şair və yazıçılardan xalq şairi Zəlimxan Yaqubun yaradıcılığı, ictimai-siyasi fəaliyyəti təqdirəlayiqdir. Z.Yaqubun yaradıcılığında vətənpərvərlik, doğma yurdun tərənnümü, vəsfi nə qədər mühümdürsə millətin taleyi, azadlığı, tərəqqisi də o qədər vacibdir. O, xalqa dərindən bağlılığını, xalqın dərdinə, çətinliyinə, məhrumiyyətlərinə biganə olmamasını söz ustalığının incəlikləri ilə sübut edir. Z.Yaqubun yaradıcılığı millətin ruhu ilə qidalanır. Bu ruhdan qidalanan şair xalqın dərdinə biganə ola bilməz. Z.Yaqubun yaradıcılığı rəngarəng idi, amma əsas məqsəd xalqa xidmət idi. O, xalqını mübarizəyə səsləyir, bu millətin əsrimizə qədər olan mübarizəsində axıdılan qanlara,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

müsibətlərə baxmayaraq onu haqqa güvənməyə səsləyirdi. "Dur ayağa məmləkətim" şeirində şair millətinə əsarətə qarşı qalxan olmaq üçün ayağa qalxmağı, döyüşməyi, vuruşmağı, mübarizə aparmağı söyləyir:

*Düşmən bilir bu torpağın altı nədir üstü nə,*
*Onunçün də od yağdırır gecə-gündüz üstünə.*
*Qurban olum dumanına, qurban olum tüstünə,*
*Qılınca dön həqiqətim, qalxana dön qeyrətim!*
*Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!...* [10, s.100]

Yurdumuza göz dikənlərin bu yurdun gözəl təbiətinə, zəngin təbii sərvətlərinə bələd olduğunu bilir, Vətənin başı üstündə əsən küləklərdən milləti xəbərdar edirdi şair. O, millətini səsləyirdisə, millətdən öncə özü silahlanırdı. Söz sılahını ən güclü silah sayırdı. Şeiri ilə, sözü ilə məmləkətini ayağa qaldırırdı. Z.Yaqub söz sənəti ilə insanların harayına çatır, xalqını sözü ilə həm bəsləyir, həm də onun gücünü ona göstərirdi. "Şeirim" əsərində sözünü, şeirini də bu mübarizədə ən güclü havadarı sayırdı:

*Haqqın var baş olub, başda durmağa,*
*Qaldır məmləkəti ayağa, şeirim!*
*Misralar meydanda mərmiyə dönsün,*
*Kəlmələr gülləyə, darağa, şeirim!...* [10, s.98]

Z.Yaqub vətən sevgisi coşub daşan şair idi. Onun "Yolum eldən başlayır" (1981), "Od aldığım ocaqlar" (1986) kitabları poetik üslubu və ideya-məzmun baxımından zəngin olan ədəbi nümunələrdir. 80-ci illərdən sonra Z.Yaqubun əsələrinin ideya xəttinə xalqımızın müstəqillik mübarizəsi sirayət edir. Şair xalqımızın azadlıq mübarizəsində verdiyi qurbanlara kədərlənsə də heç bir vaxt nikbinliyini tərk etmir. O, hər zaman türkün gücünə, mübarizliyinə inanır. Haqq yolundan dönməməyi, işıqlı sabahın bu mübarizəyə, bu döyüşə bağlı olduğunu deyir:

*Ayaz nədir, şaxta nədir, bürkü nə,*
*Nə qorxudar haqq yolunda türkü, nə?...*[10, s.110]

Z.Yaqub sözünün, sənətinin ictimai təsir qüvvəsi güclü olan şair idi. O, şeirinin gücünə, qüdrətinə inanırdı. Bu cəhətdən millətin milli mənlik şüuruna təsir qüvvəsi də böyük idi. Z.Yaqubun yaradıcılığı eyni zamanda məzmun baxımından da xalqa yaxın idi. Akademik N.Cəfərov Z.Yaqubun yaradıcılığının xalqa yaxınlığını, milliliyini onun "öz xalqını tədqiqatçı-etnoqraf kimi yaxından tanıması" ilə əlaqələndirir və bunu şairin yaradıcılığının ən mühüm göstəricisi hesab edir. [4, s.38-39] Şairin ictimai-siyasi əsərlərindən "Meydan həqiqətindir", "Ən böyük qəhrəmanlıq", "Səbr eləmə", "Hər şey gözəl olacaq", "Barışmaram", "Sən qalib gələcəkən", "Zaman adlı yumruğu var dünyanın" şeirləri ilə doğma yurda bağlı, tarixi düşmənlərini tanıyan, ayıq-sayıq olmağı özünə və xalqına unutdurmayan vətənpərvər şair görürük:

*"Barış"- deyib gülümsəmə mənə sarı,*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 446-455*

*Mən başımı yaran daşla barışmaram*
*Tanımışam mənə dağlar çəkənləri,*
*Him-cim ilə, gözlə-qaşla barışmaram!...*[10, s.84]

O, öyüd nəsihətləri versə də, buna aldanmamağı, hər zaman gözü açıq olmağı və ata-babalarımızından gələn qəhrəmanlıq ruhuna sadiq olmağı tələb edirdi. Vətən oğullarına yolunuzu kəssələr də yolunuzdan dönməyin deyir şair. "Səbr eləmə" şeirində tarixə qarşı çıxanlara, torpaqlarımıza göz dikənlərə və bu ədalətsizliyə susanlara səbri çatmır:

*...Qara yellər üstümüzdən əsə bilər,*
*Əyri əllər yolumuzu kəsə bilər,*
*Babaların ruhu bizdən küsə bilər*
*Tarix saxta yazılanda səbr eləmə!...*[10, s.85]

Z.Yaqub yaradıcılığında Vətən, millət, yurd sevgisi, bütöv Azərbaycan uğrunda mübarizəsi üstünlük təşkil edir. Onun harayı Vətəni təhlükədə olan, millətinin günü daim təşviş və həyəcanla keçən şair harayı idi. Lakin, şairin nigarançılığı ilə bərabər onun ümid dolu qalib Vətən üçün yazılan misraları da bir o qədər təsirli idi. Qələbənin Günəş kimi doğmasını hiss edən şairin qəlbi bu gün bu misraları hayqıraraq söyləməyə haqq verir:

*Doğan günəşidir sökülən danın,*
*Alar qisasını tökülən qanın.*
*Ucaldar başını Azərbaycanın*
*Qələbə!Qələbə! Ancaq qələbə!*

**Nəticə.** Cümhuriyyətin təməli ədiblərin, ziyalıların maarifçiliyi, müstəqilliyi, milliləşməni təbliğ edən çıxışları ilə vüsət alırdı və bu ənənə müstəqillik dövründə də ən mübariz şəkildə yenə şairlərin ictimai-siyasi əsərlərində öz əksini geniş şəkildə tapmışdır. Cümhuriyyət dövründə milli ruhlu əsərlərin yaranması inqilabi mübarizəyə təkan verməklə yanaşı onun əsas bünövrəsini təşkil etmişdir. İstiqlal carçıları vətəni daim müstəqil görmək şövqü ilə qələmlərinə müraciət edirdilər. Bu istiqlal mübarizəsi müstəqillik dövründə də milli məfkurəyə, əbədi istiqlal əqidəsinə sadiq qalan şair millət vəkillərinin ictimai-siyasi fəaliyyəti və əsərləri ilə davam etdirilir. Yazıçıların ictimai-siyasi əsərlərinin cümhuriyyət və müstəqillik dövründəki əhəmiyyəti onların yüksək ideallara xidmət etməsini sübut edir.

## Ədəbiyyat:

1. "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920). II cild. Bakı: Qanun Nəşriyyatı, 2016, 560 səh.
2. Cəfərov N. Bəxtiyar Vahabzadə. Azərbaycan Nəşriyyatı, 1996, 80 səh.
3. Cəfərov N. Zəlimxan Yaqub. Bakı, Azatam, 2014, 64 səh.
4. Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan Parlamentarizmi tarixi. 2 cilddə, I cild, Bakı: Mütərcim, 2018.- 688 səh.

5. Qənizadə S.M. Seçilmiş əsərləri. Bakı, "Avrasiya press", 2006, 200 səh.
6. Musayev M. Parlament fəsilləri və Bəxtiyar Vahabzadə , Bakı 1999, 75 səh.
7. Ülviyyə Tahirqızı. Mühacir mətbuatımızın fəallarından biri. Xalq cəbhəsi.- 2014.-22 noyabr.-s.11.
8. Vahabzadə B. Sandıqdan səslər. Şeirlər. "Təfəkkür " NPM, 2002, 128 səh.
9. Vahabzadə B. Seçilmiş əsələri. 2 cilddə. I cild. Bakı, Öndər nəşriyyatı, 2004, 328 səh.
10. Zəlimxan Y. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı , "Şərq-Qərb", 2006, 248 səh.

**LAMAN MUKHTAROVA**

**SOCİAL AND POLİTİCAL WORKS OF POET AND WRITER MEMBERS OF THE PARLIAMENT OF AZERBAIJAN DURING THE PERIOD OF DEMOCRATIC REPUBLIC AND INDEPENDENCE**

**Resume**

In the article it is mentioned about social political activities and works of the poet member of Azerbaijan Parliament in different times. It is informed about the works reflecting freedom, national ideology, public unity, and struggle for independence and calling to protect our national moral values. Here is emphasized S.M.Ganizadeh's works promoting enlightenment. It is talked about another poet member of the parliament M.S.Aran's poems which reflecting his endless desire for independence and his devoting the whole life to this struggle.

In addition here is touched to the theme of independence and nationality in B.Vahabzadeh's and Z.Yagub's creativity, also member of the parliament at the time of independence. We bring to the attention the importance of social-political activities of writers and poets, take a look to their creativity from this aspect, and showed the influence of these works to the struggle of the nation in the way of independence.

**Key words:** writer, poet, nation, parliament, social-political content

**Ляман МУХТАРОВА**

**ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОИЗВЕДЕНИЯ ПОЭТОВ И ПИСАТЕЛЕЙ - ЧЛЕНОВ АЗЕРБАЙДЖАНСКОГО ПАРЛАМЕНТА В ПЕРИОД ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ И НЕЗАВИСИМОСТИ**

**РЕЗЮМЕ**

В данной статье даются сведения об общественно-политической деятельности и творчестве поэтов и писателей, которые были членами Азербайджанского Парламента в разные периоды. Дана информация о произведениях поэтов и писателей – членов Парламента, которые отражают борьбу за свободу, национальную идеологию, социальное единство,

независимость и призывают к защите наших национальных и моральных ценностей. Здесь подчёркивается значение произведений писателя - депутата Парламента Республики С. М. Ганизаде, пропагандирующего просветительские идеи. Произведения поэта - депутата М.С.Арана, отражающие непрекращающуюся борьбу за независимость и посвящение этой борьбе жизни поэта принимается во внимание.

Кроме того, темы национализма и независимости затронуты и в творчестве писателей и поэтов, депутатов периода независимости Б.Вагабзаде и З.Ягуба. Подчеркивается значение общественно-политической деятельности интеллектуалов, поэтов и писателей в период независимости, рассматривается их творчество, обсуждается влияние их произведений на борьбу народа за независимость.

**Ключевые слова:** литератор, поэт, народ, парламент, общественно – политическое содержание.

**Rəyçi: filologiya elmləri doktoru, professor Kamil Allahyarov**